

**YAQUB ƏLİYEV,**
Qaradağ rayon
İcra Hakimiyyətinin Başçısı

## HEYDƏR ƏLİYEV ƏBƏDİ DÖVLƏT QURUB

10 il bundan əvvələ nəzər salanda həmin günlər insana yuxu kimi gəlir. Ölkədə anarxiya baş alıb gedir, hərc – mərclik, özbaşınalıq hökm sürürdü. Vətəndaşlarının hüquq, azadlıq və mühafizəsini təmin etməli olan hakimiyyət özü vətəndaşlar üçün əsl təhlükə mənbəyinə çevrilmişdi. Bir tərəfdən torpaqlarımızın işğalı, bir tərəfdən qaçqın və məcburi köçkün soydaşlarımızın çoxlu sayda problemləri, bir tərəfdən də səriştəsiz və hətta satqın rəhbərlərin antimilli hərəkətləri nəticəsində yaranmış dözülməz şərait. Bu idi həmin illərdə Azərbaycan reallığı.

1993 – cü ilin birinci yarısında Azərbaycanda vəziyyət daha da gərginləşdi. Bu zaman Azərbaycan xalqı düzgün qərar qəbul edərək həmin çətin məqamda Heydər Əliyevə üz tutdu. Və söz yox ki, Heydər Əliyev də bu çağırışa biganə qala bilməzdi. Və biganə də qalmadı. Xalqının, millətinin, dövlətinin ağır günündə onun səsinə səs verdi. Siyasi hakimiyyətə qayıdaraq ölkənin üzləşdiyi problemləri çözməyə başladı.

Az müddətdə sözün əsl mənasında möcüzələr baş verdi.

Azərbaycan dövləti üçün əsas önəm kəsb edən iki vacib məsələdən biri ölkədə başlamaqda olan vətəndaş müharibəsini dayandırmaq, ikincisi isə torpaqların işğalının qarşısını almaq, milli ordunun döyüş qabiliyyətini artırmaq idi. Həllini təxirəsalmadan gözləyən digər məsələlər də var idi. Bunlardan sayı bir milyona çatan qaçqın və məcburi köçkün soydaşlarımızın yerləşdirilməsi və onların problemlərinin həlli, iflic vəziyyətə düşmüş iqtisadiyyatın bərpası, son dərəcə acınacaqlı bir vəziyyətə düşmüş əhalinin təxirəsalınmaz sosial problemlərinin həlli, nəinki ayların, həftələrin diqtəsi, hətta gün və saatların diqtəsi idi.

Bu məsələlərin hər birinin həlli digərini gözləmir, bir çox hallarda biri digərindən törənir və kompleks həll tələb edirdi. Lakin həmin məsələlərin heç də hamısını eyni vaxtda həll etmək də mümkün deyildi.

Həmin dəhşətli, həmin müdhiş, həmin təhlükəli günlərdə möhtərəm Heydər Əliyev ölkə rəhbəri kimi fəaliyyətə başladı.

O, ilk növbədə ordumuzun möhkəmləndirilməsi işinə başladı. Milli ordumuzun Horadiz istiqamətində uğurlu əməliyyatları düşmənin məkrli planlarına – Xəzər dənizinə çıxaraq, ölkəni ikiyə bölmək planına – son qoydu. Düşmənə bu planları reallaşdırmaq üçün bəzi nankor soydaşlarımız da köməklik edirdilər. Surət Hüseynov və Əlikram Hümbətov kimi Vətən xainləri Azərbaycanı bölüb, parçalamaq istəyən qüvvələrin oyuncaqlarına çevrilmişdilər. Belə qüvvələrin məhv edilməsi zamanı da çatmışdı. Çünki həmin qüvvələrin mövcudluğu müstəqilliyimiz və azadlığımız üçün hər an təhlükə idi.



Möhtərəm Heydər Əliyevin müraciəti ilə ayağa qalxan əliyalın xalq Əlikram Hümbətovun silahlı quldur dəstələrini bir andaca darmadağın etdi. Əlikram Hümbətov isə qaçıb gizləndi. Lakin nə qədər gizlənsə də, ədalət mühakiməsinin möhkəm əllərindən yaxasını qurtara bilmədi. 1994–cü ilin oktyabr və 1995 – ci ilin mart aylarında Surət Hüseynov və Rövşən Cavadovun silahlı dəstələri ləğv edildi. Və ölkədə silah gücünə hakimiyyətə gəlmək istəyənlərin aqibətləri digərlərinə də görk oldu. Və onlar anladılar ki, Heydər Əliyevin rəhbər olduğu ölkədə heç kəs silah gücünə heç nəyə nail ola bilməz. 1994–cü ildə düşmən günü-gündən güclənən, nizam – intizamı qaydaya düşən ordumuzla artıq hesablaşmağa məcbur idi. Amma orduda heç də vəziyyət tam qaydasında deyildi. Uzun müddət davam edən döyüşlər, kadr zabitlərin azlığı, səriştəsiz ordu rəhbərləri, sıradan çıxmış döyüş texnikaları, silah – sursat və ərzaqla bağlı problemlər və ən ümdəsi hər gün şəhid olan igid övladlarımız – bütün bunlar atəşkəsin əldə olunmasını vacib edirdi. Odur ki, cəbhə xəttində atəşkəs elan edildi.

Atəşkəsin əldə olunmasından Azərbaycan tərəfi daha yaxşı istifadə etdi. Azərbaycan atəşkəsdən istifadə edərək ordu quruculuğu işini sürətləndirdi. Hal – hazırda Azərbaycanın düşmən qabağına çıxa bilən hər bir döyüş texnikası ilə təchiz edilmiş və yüksək təlim görmüş ordusu var. Bu gün bu ordunun zabit və əsgərləri Avropanın ortasında – Bosniya – Hersoqovina, Əfqanistanda sülhyaratma missiyası həyata keçirirlər. Bu fəxr edilməli hadisədir. Dünən ikrah hissi ilə bizə münasibət bəsləyənlər, ədalətsiz şəkildə bizə embarqolar, vetolar qoyanlar, bizi ekstremist, terrorçu adlandıranlar bu gün bizləri Avropanın ortasına sülh yaratmağa dəvət edirlər. Söz yox ki, onlar bizim kiçik bir tağımımızsız da keçinərdilər. Hərbi qüvvə baxımından bir tağım böyük qüvvə deyil. Amma məsələ bunun siyasi və psixoloji tərəflərindədir, Avropanın, dünyanın bizə qarşı dəyişən münasibətindədir.

Bu nailiyyətə Azərbaycan dövlətib yalnız Heydər Əliyevin apardığı siyasət nəticəsində nail olub.

Atəşkəsin və sabitliyin digər xeyri isə onda oldu ki, Azərbaycanda iqtisadiyyat dirçəlməyə başladı. Azərbaycan dünyanın ən böyük dövlətləri ilə işbirliyi qurdu. Dünyanın əsas neft nəhənglərinin iştirakı ilə «Əsrin müqaviləsi» bağlandı. Azərbaycana xarici investisiyalar qoyuldu. İqtisadi islahatlar nəticəsində özəlləşdirmələr həyata keçirildi. Azad, rəqabətli, bazar münasibətlərinə əsaslanan iqtisadiyyat formalaşdı. Ölkədə ərzaq bolluğu yarandı. Vətəndaşların maddi – rifah halı yaxşılaşdı və bu yaxşılaşmalar yenə də davam edir.

Yuxarıda qeyd etdik ki, Azərbaycanın problemlərinin bir çoxu bir – birindən yaranırdı və onların bir çoxunun həlli komleks yanaşma tələb edirdi. Odur ki, elə atəşkəsin, siyasi sabitliyin verdiyi imkanlar çərçivəsində iqtisadiyyatı, vətən-

daşların maddi – rifah halını yaxşılaşdırmaqla bərabər, eyni zamanda ölkədə siyasi sabitliyin, vətəndaşların hüquq və azadlıqlarının qarantı ola biləcək dövlətin qurulması istiqamətində də işlər gedirdi. Heydər Əliyevin rəhbərliyi altında elə bir dövlət hakimiyyəti yaranırdı ki, bu hakimiyyət öz mənbəyini xalqdan alırdı və onun bütün təsisatları Avropa standartlarına uyğun, dünyada məqbul hesab olunacaq şəkildə, ən demokratik prinsipləri gözləməklə formalaşırdı.

Bu sırada ən mühüm hadisələri belə sıralamaq olar.

1. 1993 – cü il Prezident seçkiləri
2. 1995 – ci il Konstitusiyanın qəbulu və Parlament seçkiləri
3. 1998 – ci il Prezident seçkiləri
4. 1999 – cu il Bələdiyyə seçkiləri
5. 2000 – ci il Parlament seçkiləri
6. 2002 – ci il Ümumxalq səsverməsi

Yuxarıda sadaladıqlarımızdan başqa, bu illərdə ölüm hökmünün ləğvi, Konstitusiya Məhkəməsinin yaranması, Ambudstman institunun yaranması, Avropa Şurasına üzv qəbul edilməyimiz insan hüquqları və azadlıqlarının qorunması və sairlə bağlı beynəlxalq konvensiyalara qoşulmağımız da hüquqi, demokratik dövlət quruculuğu istiqamətində atılan mühüm addımlardı.

1995 – ci il noyabrın 12 – də Ümumxalq səsverməsi yolu ilə qəbul edilən ilk demokratik Konstitusiyamız gələcəkdə tariximizin çox qiymətli incisi hesab ediləcək. Azərbaycanda aparılan demokratik, hüquqi dövlət quruculuğunun hüquqi bazası olan bu qiymətli sənədin müəllifi Heydər Əliyev cənablarıdır.

Bu sənəddə hüquqi dövlətin əsas prinsiplərindən biri olan hakimiyyət bölgüsü prinsipi öz əksini tapıb. Artıq Azərbaycanda hakimiyyətin hər üç qolu demokratik prinsiplərə uyğun və konstitusiyamıza müvafiq olaraq formalaşmışdır. Konstitusiyamıza uyğun olaraq formalaşmış icraedici hakimiyyət möhtərəm Prezidentimizin rəhbərliyi altında ölkənin daxili və xarici siyasətinin həyata keçirilməsində əsas yer tutur. İcra hakimiyyəti ali icra orqanından yerli icra strukturlarına qədər vahid bir mexanizm təşkil edir. Bütün icra strukturlarının səlahiyyət və vəzifələrinin son dərəcə dəqiq və məntiqi şəkildə müəyyən olunması onların effektli fəaliyyətinə tam şərait yaradır.

Qanunverici hakimiyyət olan Milli Məclisin də konstitusiyamıza uyğun olaraq formalaşması və fəaliyyəti də göz qabağındadır. Demokratik prinsiplərə, azad, bərabər, birbaşa və gizli səsvermə yolu ilə formalaşan qanunverici orqan dövlətimizin sivil qaydalara əsaslanan cəmiyyət quruculuğuna əvəzsiz töhvələr vermişdir. Milli Məclis həyatımızın bütün sahələrində münasibətləri nizama salan yüzlərlə mühüm qanunlar qəbul etmişdir.

Ölkənin xaricində də, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında Milli Məclisinin xeyli əhəmiyyətli işləri olmuşdur. Mən Milli Məclisin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətimizin fəaliyyətini xüsusi vurğulamaq istərdim. Nümayəndə heyətimiz, başda cənab İlham Əliyev olmaqla, yüksək tribunadan istifadə edərək, Azərbaycan həqiqətlərini Avropa parlamentarlarına çatdırır, məcburi sürükləndiyimiz Qarabağ konfliktlərinin əsas səbəblərini və əsl günahkarlarının kimliyini, hiyləgər qonşularımızın əsl simasını tam olaraq göstərir. İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının vitse – prezidenti və büro üzvü seçilməyi diplomatiya tariximizdə çox əlamətdar bir hadisə sayılmalıdır.



Dövlət hakimiyyətinin daha bir qolu məhkəmə hakimiyyətidir. Konstitusiyamıza uyğun olaraq Azərbaycanda insanların hüquq və azadlıqlarının qarantı ola biləcək məhkəmə hakimiyyəti formalaşıb. Hakimlərin və məhkəmələrin müstəqilliyi təmin edilibdir. İlk dəfə olaraq Konstitusiya məhkəməsi institutu yaradılıb. 24 avqust 2002 – ci il Referendumu ilə Konstitusiyaya edilən dəyişikliyə görə vətəndaşlara Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququnun verilməsi də çox önəmli bir hadisədir. Konstitusiyamızda insanların əsas hüquq və azadlıqlarının qorunması ilə bağlı xeyli müddəa var. Bu müddəalar ölkəmizin hər sakininə geniş hüquq və azadlıqlar verir. Bu hüquq və azadlıqların günü – gündən daha yaxşı təmin edilməsi ölkəmizin beynəlxalq imicini artırır.

Azərbaycanda dəfələrlə dövlətlər yaranıb, yaşayıb, məhv olub, işğal olunub, ilhaq olunubdur.

Bu gün Azərbaycanda tam yeni bir dövlət yaranıb. Onun bünövrəsini cənab Heydər Əliyev qoyub və tikib başa çatdırıb.

Bu dövlətin taleyi əvvəlki dövlətlərimizin taleyinə bənzəməyəcək. Bu dövlət əbədi dövlət olacaq. Nə qədər Yer üzərində sivilizasiya var, bu dövlət yaşayacaq, mövcud olacaqdır.